# AZƏRBAYCANDA PEŞƏ TƏHSİLİNİN İNKİŞAFI: DÖVLƏT SİYASƏTİ, İNSAN KAPİTALI VƏ STRATEJİ PERSPEKTİVLƏR



**Aytən Qurbanova - Səfərəliyeva,**
*Peşə Təhsili üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri, Koç Universitetinin "Siyasi elmlər və beynəlxalq münasibətlər" ixtisası üzrə doktorantı*
*e-mail: Aytan.Gurbanova@ptda.edu.az*
*https://doi.org/10.30546/2706-7858.2026.2.3001*

Müasir dövrdə dövlətlərin iqtisadi qüdrətini və sosial rifah səviyyəsini müəyyən edən əsas amillərdən biri insan kapitalıdır. Qloballaşma, rəqəmsal transformasiya və texnoloji inkişaf şəraitində bilik və bacarıqlara əsaslanan iqtisadiyyatın formalaşması peşə təhsilinin strateji əhəmiyyətini daha da artırmışdır. Bu baxımdan peşə təhsili yalnız təhsil sisteminin bir hissəsi deyil, eyni zamanda ölkənin iqtisadi təhlükəsizliyini, əmək bazarının dayanıqlığını və milli inkişaf strategiyasını təmin edən əsas istiqamətlərdən biri hesab olunur.

Azərbaycanda da son illərdə insan kapitalının inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü sosial-iqtisadi islahatlar çərçivəsində peşə təhsilinin inkişafı xüsusi diqqət mərkəzində saxlanılmış, bu sahənin beynəlxalq standartlara uyğunlaşdırılması, maddi-texniki bazasının müasirləşdirilməsi və əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli kadr hazırlığının təmin olunması istiqamətində mühüm addımlar atılmışdır.

**Azərbaycanda peşə təhsilinin inkişafının tarixi mərhələləri**

Azərbaycanda peşə təhsilinin inkişafı müxtəlif tarixi mərhələlərdə həyata keçirilən islahatlar və dövlət proqramları ilə müşayiət olunmuşdur. Bu inkişaf prosesində həm sovet dövründə formalaşmış peşə təhsili ənənələrinin qorunması, həm də müstəqillik dövründə müasir əmək bazarının tələblərinə uyğun yeni idarəetmə və tədris mexanizmlərinin tətbiqi əsas istiqamətlərdən biri olmuşdur.

***Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk dövründə peşə təhsilinin inkişafı***

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə sənaye, kənd təsərrüfatı və digər istehsal sahələri üçün ixtisaslı kadr hazırlığı dövlət siyasətinin mühüm istiqamətlərindən biri hesab olunurdu. Həmin dövrdə texniki-peşə məktəblərinin şəbəkəsi genişləndirilmiş, müxtəlif istehsal sahələri üzrə peşəkar kadr hazırlığı gücləndirilmişdir. Eyni zamanda peşə təhsili müəssisələrinin maddi-texniki bazasının inkişaf etdirilməsi və əmək bazarının ehtiyacları-




*Peşə təhsilinə və onun inkişafına göstərilən yüksək diqqətin daha bir təzahürü olaraq, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "Caspian Agro Week" və 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi – "InterFood Azerbaijan" çərçivəsində Peşə Təhsili üzrə Dövlət Agentliyinin stendi ilə tanış olublar və ölkədə peşə təhsilinin gücləndirilməsi, müasir əmək bazarının tələblərinə uyğun kadr hazırlığının dəstəklənməsi istiqamətində görülən işlərə xüsusi maraq göstəriblər.*

na uyğun ixtisasların təşkili istiqamətində tədbirlər həyata keçirilmişdir. Bu dövrdə həyata keçirilən tədbirlər Azərbaycanda peşə təhsilinin institusional əsaslarının formalaşmasına və gələcək inkişafı üçün baza yaradılmasına mühüm töhfə vermişdir.

***Müstəqillik dövründə peşə təhsilinin inkişafı***

Müstəqilliyin ilk illərində ölkədə baş verən sosial-iqtisadi çətinliklər peşə təhsili sisteminə də təsirsiz ötüşməmişdir. Lakin 1990-cı illərin ortalarından etibarən ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə təhsil sisteminin yenidən qurulması və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Bu baxımdan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 avqust 1996-cı il tarixli "Azərbaycan Respublikasında ilk peşə-ixtisas təhsili sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında" Qərarı mühüm əhəmiyyət daşımışdır. Həmin qərara əsasən maddi-texniki bazası zəif olan texniki-peşə məktəbləri birləşdirilmiş və ya ləğv edilmiş, texniki-peşə təhsili müəssisələrinə peşə məktəbi və peşə liseyi statusu verilmişdir. Bu tədbirlər peşə təhsili sisteminin optimallaşdırılması və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi baxımından mühüm rol oynamışdır.

Müstəqillik dövründə peşə təhsilinin inkişafında növbəti mühüm addım Azərbaycan Respublikası Prezidentinin 3 iyul 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007–2012-ci illər)" olmuşdur. Prezident İlham Əliyevin tövsiyəsi ilə qəbul edilən bu proqram peşə təhsilinin müasir əmək ba-

zarının tələblərinə uyğunlaşdırılmasına geniş imkan yaratmışdır. Dövlət Proqramı çərçivəsində peşə təhsili müəssisələrinin maddi-texniki bazası gücləndirilmiş, yeni ixtisaslar yaradılmış, müasir laboratoriya və emalatxanalar qurulmuş, tədris prosesində innovativ yanaşmalar tətbiq edilmişdir. Nəticədə peşə təhsili müəssisələrinə maraq artmış, əmək bazarının tələblərinə uyğun ixtisaslı kadr hazırlığı istiqamətində mühüm irəliləyişlər əldə olunmuşdur.

Beləliklə, müstəqillik dövründə həyata keçirilən dövlət siyasəti və islahatlar Azərbaycanda peşə təhsilinin müasir inkişaf mərhələsinə keçidini təmin etmiş, bu sahənin əmək bazarı ilə əlaqələrinin gücləndirilməsinə şərait yaratmışdır.

**Dövlət siyasəti və peşə təhsilinin modernləşdirilməsi**

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətdə insan kapitalının inkişafı prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Dövlət başçısı müxtəlif çıxışlarında Azərbaycanın gələcək inkişafının, məhz savadlı, peşəkar və rəqabətqabiliyyətli insan resurslarından asılı olduğunu xüsusi vurğulamışdır. Xüsusilə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi və innovativ texnologiyalara əsaslanan yeni istehsal sahələrinin formalaşdırılması peşəkar kadrlara olan tələbatı əhəmiyyətli dərəcədə artırmışdır. Bu baxımdan peşə təhsilinin inkişafı dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir.

**Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və institusional islahatlar**

Azərbaycanda peşə təhsilinin institusional inkişafı istiqamətində atılmış ən mühüm addımlardan biri Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2016-cı il tarixli Fərmanı ilə Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması olmuşdur. Agentliyin yaradılması dövlət başçısının peşə təhsilinə verdiyi xüsusi önəmin və bu sahənin ölkənin sosial-iqtisadi inkişafında strateji istiqamət kimi müəyyən edilməsinin bariz nümunəsi idi. Yeni idarəetmə modeli peşə təhsili sahəsində dövlət siyasətinin daha səmərəli həyata keçirilməsinə, beynəlxalq təcrübənin tətbiqinə və peşə təhsilinin müasir standartlara uyğunlaşdırılmasına geniş imkanlar yaratdı. Son illərdə Agentliyin fəaliyyəti nəticəsində peşə təhsili müəssisələrinin infrastrukturu yenilənmiş, müasir tədris proqramları hazırlanmış, əmək bazarının tələblərinə uyğun yeni ixtisaslar yaradılmış, beynəlxalq əməkdaşlıq əlaqələri genişləndirilmişdir. Bununla yanaşı, idarəetmədə çevikliyin artırılması, rəqəmsal həllərin tətbiqi və işəgötürənlərlə əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli, 1897 nömrəli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmiş və bu sənəddə peşə təhsili sektorunun inkişafı üzrə mühüm hədəflər müəyyənləşdirilmişdir. Bu çərçivədə hazırlanmış "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" peşə təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılması, çevik idarəetmə sisteminin formalaşdırılması və beynəlxalq təcrübəyə inteqrasiyası baxımından mühüm strateji sənəd kimi çıxış etmişdir.

Sənəddə aşağıdakı əsas strateji hədəflər müəyyən edilmişdir:

- *işəgötürənlərin peşə təhsili sisteminə inteqrasiyası;*
- *nəticəyönümlü maliyyələşdirmə mexanizminin yaradılması;*
- *məqsədli peşə inkişafı proqramlarının hazırlanması;*
- *sektorlar üzrə spesifik ixtisas proqramlarının yaradılması;*
- *peşə təhsilinin inkişafına təkan verən müasir idarəetmə alətlərinin tətbiqi.*

Beləliklə, həyata keçirilən institusional islahatlar Azərbaycanda peşə təhsilinin müasir, çevik və əmək bazarının tələblərinə uyğun sistem kimi formalaşmasına, eləcə də ölkənin insan kapitalının inkişafına mühüm töhfə vermişdir.

***İnfrastrukturun və institusional idarəetmənin təkmilləşdirilməsi***

Son illərdə peşə təhsili müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, müasir emalatxana və laboratoriyaların yaradılması istiqamətində mühüm işlər görülmüş, eyni zamanda idarəetmə sistemində çevikliyin artırılması, müasir idarəetmə mexanizmlərinin tətbiqi və nə-

ticəyönümlü fəaliyyət modelinin formalaşdırılması istiqamətində ardıcıl addımlar atılmışdır.

Peşə təhsilinə dövlət dəstəyinin mühüm nümunələrindən biri də Prezident İlham Əliyevin 17 mart 2023-cü il tarixli, 2067 nömrəli Fərmanı və Nazirlər Kabinetinin 14 iyun 2023-cü il tarixli, 192 nömrəli Qərarı ilə peşə təhsili pilləsində adambaşına maliyyələşmə mexanizminin tətbiq olunmasıdır. Bu mexanizm peşə təhsilində şəffaflığın artırılması, keyfiyyət göstəricilərinin yüksəldilməsi və nəticəyönümlü idarəetmənin gücləndirilməsi baxımından mühüm yenilik hesab olunur. Maliyyələşmə sistemi mərhələli şəkildə tətbiq edilmiş, əvvəlcə 8, daha sonra 9 və hazırda isə 11 peşə təhsili müəssisəsi bu sistemə keçirilmişdir.

**Yeni inkişaf mərhələsi və strateji perspektivlər**

Peşə təhsili sahəsində həyata keçirilən tədbirlər insan kapitalının gücləndirilməsinə, gənclərin məşğulluq imkanlarının artırılmasına və ölkənin iqtisadi rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Əsas prioritetlər aşağıdakılardır:

• *maddi-texniki bazanın müasirləşdirilməsi;*
• *innovativ texnologiyaların tətbiqi;*
• *əmək bazarının tələblərinə uyğun yeni ixtisasların yaradılması;*
• *beynəlxalq standartlara uyğun tədris proqramlarının hazırlanması;*
• *rəqəmsal bacarıqların inkişaf etdirilməsi;*
• *beynəlxalq əməkdaşlığın genişləndirilməsi.*

***İnfrastrukturun və maddi-texniki bazanın təkmilləşdirilməsi***

Peşə təhsilinin inkişafında əsas prioritet istiqamətlərdən biri müasir infrastruktura malik təhsil müəssisələrinin yaradılmasıdır. Respublikamızda 2026–2030-cu illərdə müasir standartlara cavab verən 21 yeni peşə təhsili müəssisəsinin tikilməsi və 2 müəssisənin isə əsaslı təmiri nəzərdə tutulur. Bu addımlar regionlarda peşəkar kadr hazırlığının gücləndirilməsi və peşə təhsilinin əlçatanlığının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu mərhələdə maddi-texniki bazanın müasirləşdirilməsi, innovativ texnologiyaların tətbiqi və rəqəmsal infrastrukturun gücləndirilməsi əsas prioritetlər kimi müəyyən edilmişdir.

Azərbaycanda peşə təhsilinin müasirləşdirilməsi istiqamətində həyata keçirilən mühüm layihələrdən biri də Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin yenidən qurulması olmuşdur. 25 fevral 2025-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə mərkəzin açılışı həyata keçirilmişdir. Mərkəzdə müasir laboratoriyalar, emalatxanalar, informatika kabinetləri, istixana kompleksi, yataqxana və təlim-qonaq evi yaradılmışdır. Burada turizm, kənd təsərrüfatı, sənaye, informasiya texnologiyaları, xidmət və alternativ enerji sahələri üzrə müasir ixtisasların tədrisi həyata keçirilir.

***Təhsilin keyfiyyətinin və məzmununun yenilənməsi***

Peşə təhsilində həyata keçirilən islahatların əsas istiqamətlərindən biri əmək bazarının tələblərinə uyğun yeni ixtisasların yaradılması və tədris məzmununun müasirləşdirilməsidir. Bu məqsədlə beynəlxalq standartlara uyğun tədris proqramlarının hazırlanması, innovativ tədris metodlarının tətbiqi və rəqəmsal bacarıqların inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Əmək bazarının çağırışlarına uyğun olaraq kibertəhlükəsizlik, proqramlaşdırma, kompüter şəbəkələri, elektrik və hibrid avtomobillərinin texniki xidməti, günəş panellərinin quraşdırılması və proqramla idarə olunan sənaye avadanlıqlarının texniki istismarı kimi innovativ ixtisasların tədrisi təşkil edilmişdir.

Peşə təhsilində həyata keçirilən mühüm yeniliklərdən biri də dual təhsil modelinin genişləndirilməsidir. Bu model tələbələrin həm nəzəri bilik əldə etməsinə, həm də müəssisələrdə praktik təcrübə qazanmasına imkan yaradır. Nəticədə məzunların əmək bazarına daha sürətli inteqrasiyası təmin olunur və işəgötürənlərin ehtiyaclarına uyğun kadr hazırlığı həyata keçirilir.

***Beynəlxalq əməkdaşlığın genişləndirilməsi***

Azərbaycanın peşə təhsili sisteminin beynəlxalq inteqrasiyası istiqamətində də mühüm addımlar atılmışdır. Azərbaycan və Türkiyə arasında 2021-ci ildə peşə təhsili sahəsində imzalanmış əməkdaşlıq protokolu bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Əməkdaşlıq çərçivəsində 2025-ci il ərzində Türkiyənin Ankara, İstanbul, Antalya, Bursa və İzmir şəhərlərində təşkil edilən ixtisasartırma proqramlarında 66 azərbaycanlı müəllim

iştirak etmişdir. Bu təşəbbüslər beynəlxalq təcrübənin öyrənilməsi, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması və müasir tədris metodlarının tətbiqi baxımından mühüm rol oynayır.

**Əhatəliliyin və peşə təhsilinə marağın artırılması**

Son illərdə peşə təhsilinə marağın artması həyata keçirilən dövlət siyasətinin uğurlu nəticələrindən biri kimi qiymətləndirilir. 2024–2025-ci tədris ili üzrə 84 peşə təhsili müəssisəsində 136 ixtisas üzrə qəbul aparılmış və ümumilikdə 24 821 nəfər tələbə qəbul olunmuşdur. Onlardan 21 179 nəfəri dövlət sifarişi əsasında təhsil almaq hüququ qazanmışdır. 2025–2026-cı tədris ili üzrə isə 152 ixtisas üzrə 32 620 plan yeri ayrılmış, nəticədə 27 021 nəfər qəbul olmuşdur. Qəbul olunanların 22 772 nəfəri dövlət vəsaiti hesabına təhsil almaq imkanı əldə etmişdir.

Son 5 ildə dövlət sifarişli yerlərin sayında 71 faiz artım qeydə alınmışdır:

• 2021/2022 – 14 160
• 2022/2023 – 16 040
• 2023/2024 – 18 290
• 2024/2025 – 23 185
• 2025/2026 – 24 280

Bu göstəricilər dövlətin peşə təhsilinə göstərdiyi diqqətin, həyata keçirilən islahatların effektivliyinin və cəmiyyətdə peşə təhsilinə marağın artmasının mühüm göstəricisi hesab olunur.

Azərbaycanda son illərdə peşə təhsili sahəsində həyata keçirilən institusional islahatlar, infrastruktur layihələri və müasir idarəetmə yanaşmaları bu sahənin dövlət siyasətinin əsas prioritet istiqamətlərindən birinə çevrildiyini göstərir. Peşə təhsili müəssisələrinin maddi-texniki bazasının yenilənməsi, yeni təhsil mərkəzlərinin yaradılması, əmək bazarının tələblərinə uyğun innovativ ixtisasların tətbiqi və rəqəmsal bacarıqların inkişafına yönəlmiş tədbirlər peşə təhsilinin keyfiyyətcə yeni mərhələyə keçidini təmin etmişdir. Eyni zamanda beynəlxalq əməkdaşlığın genişləndirilməsi, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması və dual təhsil modelinin tətbiqi peşə təhsilinin əmək bazarı ilə əlaqələrinin gücləndirilməsinə və məzunların praktik bacarıqlarının inkişafına mühüm töhfə vermişdir. Dövlət sifarişli yerlərin və qəbul göstəricilərinin artması isə cəmiyyətdə peşə təhsilinə marağın yüksəldiyini və həyata keçirilən siyasətin real nəticələr verdiyini nümayiş etdirir.

Bütün bunlar göstərir ki, peşə təhsili yalnız iqtisadiyyatın müxtəlif sahələri üçün ixtisaslı kadr hazırlığı funksiyasını yerinə yetirmir, eyni zamanda insan kapitalının inkişafı, regionların sosial-iqtisadi tərəqqisi, gənclərin məşğulluğunun təmin olunması və ölkənin rəqabət qabiliyyətinin artırılması baxımından strateji əhəmiyyət daşıyır.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü dövlət siyasəti nəticəsində Azərbaycanda müasir, çevik və beynəlxalq standartlara uyğun peşə təhsili sisteminin formalaşdırılması istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir. Gələcək dövrdə də bu sahədə həyata keçiriləcək islahatların ölkənin dayanıqlı inkişafına və güclü insan kapitalının formalaşmasına mühüm töhfə verəcəyi gözlənilir.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış proqramının uğurla həyata keçirilməsində peşə təhsili mühüm rol oynayır. Bu istiqamətdə əsas məqsədlərdən biri geri qayıdan vətəndaşların məşğulluğunun təmin edilməsi, onların əmək bazarının tələblərinə uyğun peşə bacarıqları əldə etməsinə dəstək göstərilməsidir.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri, yeni iqtisadi fəaliyyət sahələrinin yaradılması və regionların sosial-iqtisadi inkişafı peşəkar kadrlara olan tələbatı artırır. Bu baxımdan peşə təhsili sistemi tikinti, kənd təsərrüfatı, xidmət, turizm, sənaye və digər sahələr üzrə hazırlanan kadrlarla Böyük Qayıdış proqramının insan kapitalı komponentinin həyata keçirilməsinə mühüm töhfə verir.

**Nəticə.** Nəticə etibarilə qeyd etmək olar ki, artıq Azərbaycanda peşə təhsilinin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar peşə təhsilinin yeni inkişaf mərhələsinə qədəm qoymasına şərait yaratmışdır. Çünki peşə təhsilinin inkişafı yalnız əmək bazarının tələblərinin ödənilməsi deyil, eyni zamanda ölkənin iqtisadi təh-

lükəsizliyinin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafı və gənclərin sosial rifahının yüksəldilməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu baxımdan peşə təhsili gələcək dövrdə də Azərbaycan dövlətinin inkişaf siyasətinin əsas istiqamətlərindən biri olaraq qalacaq, ölkənin dayanıqlı iqtisadi inkişafına və güclü insan kapitalının formalaşmasına mühüm töhfə verəcəkdir.

Bu gün fəxrlə deyə bilərik ki, ölkəmizdə maddi-texniki bazanın gücləndirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, dual təhsil modelinin tətbiqi, innovativ ixtisasların yaradılması və insan kapitalının inkişafına yönəlmiş dövlət siyasəti  Peşə Təhsili üzrə Dölət Agentliyinin rəhbərliyi ilə Azərbaycanda müasir və rəqabətqabiliyyətli peşə təhsili sisteminin formalaşdırılmasına mühüm töhfə verir. Həm də çox qürurverici hadısədir ki, bütün bu nailiyyətlər Agentliyin yaradılmasının 10 illiyi ərəfəsində daha möhtəşəm görünür və bizim də  Agentlik olaraq  bu uğurlarda əməyimiz var.

## İstifadə edilmiş ədəbiyyat


1. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı
https://president.az
2. Peşə Təhsili üzrə Dövlət Agentliyi
https://vet.edu.gov.az
3. Azərbaycan Respublikası Nazirlər Kabineti
https://nk.gov.az
4. Elm və Təhsil Nazirliyi
https://edu.gov.az
5. Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı.
6. Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı.